**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**BABƏK OKTAY OĞLU KƏRİMOV**

# İRƏVAN ŞƏHƏRİ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ)

**İxtisas: 5503.02–Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2014**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Hacı Nuru oğlu Həsənov**
tarix üzrə fəlsəfə doktoru

**Rəsmi opponentlər:** **Zəhmət Əbülfət oğlu Şahverdiyev**
tarix üzrə elmlər doktoru

**Cəfər Subeyib oğlu Cəfərli**
tarix üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrası

Müdafiə _____ __________ 2014-cü il tarixdə saat ___-da AMEA-nın Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" ___________ 2014-cü ildə göndərilmişdir.

**D.01.211. Dissertasiya Şurasının elmi katibi:** **E.A.ŞIXƏLİYEV**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Həqiqətən tarixi həqiqətlərə söykənməklə, milli dövlətçilik tariximizin ayrı-ayrı inkişaf mərhələlərində mütərəqqi, təqdirəlayiq nə varsa, onların hamısından ətraflı dərəcədə faydalanmaqla tariximizin öyrənilməsi sahəsində mövcud olan boşluqları doldurmaq olar. Bu mənada bu gün qazanılmış müstəqilliyin, azadlığın bizə bəxş etdiyi hüquq və imkanlarından yararlanaraq tariximizin az öyrənilmiş, bəlkə də heç öyrənilməmiş ayrı-ayrı problemlərinin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, 1920-ci il aprel istilasından sonra Azərbaycanın Sovet imperiyasının tərkibinə qatılması ilə digər sahələrlə yanaşı, Azərbaycan tarixinin öyrənilməsində də mərkəzçilik prinsipləri özünü qabarıq şəkildə göstərirdi. Mərkəzin göstərişi ilə yazılan ayrı-ayrı əsərlərdə, çoxcildli monoqrafiyalarda isə əsl həqiqətlər ya ört-basdır edilir, ya da üzərindən sükutla keçilirdi. Əslində, burada sələflərimizin üzləşdikləri çətinlik və məhrumiyyətləri də əsla yaddan çıxarmamalıyıq. Onlar son dərəcə mürəkkəb və ziddiyyətli dövrlərdə fəaliyyət göstərməklə Azərbaycan tarixinin qaranlıq məqamlarını gələcək nəsillərə çatdırmağa çalışırdılar. Bu baxımdan da müasir Azərbaycan tarix elminin qarşısında Vətən tarixinin ayrı-ayrı problemlərinin araşdırılması, əsl həqiqətlərin gələcək nəsillərə çatdırılması ilə bağlı mühüm vəzifələr durur. Tarixən Azərbaycanın Bakı, Gəncə, Şamaxı, Naxçıvan və başqa şəhərləri ilə yanaşı Azərbaycan xalqının mədəni və ictimai həyatında mühüm rol oynamış, XX əsrin əvvəllərinədək Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuş İrəvan şəhərinin tarixinin öyrənilməsi qeyd olunan məsələlərdəndir.

Məlumdur ki, İrəvan şəhəri Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və ədəbi irsə malik olan mərkəzlərindən biri olmuşdur. Burada xalqımızın tarixinin müxtəlif dövrlərini özündə əks etdirən abidələr, qədim qala divarları, şərq-müsəlman memarlıq üslubunda tikilmiş binalar, məscidlər, mədəniyyət mərkəzləri, qəbirüstü abidələr, ziyarətgahlar, epiqrafik yazılar Azərbaycan türklərinin lap qədimlərdən bu yerlərin aparıcı etnosu olduğunu bir daha təsdiq edir.

Problemin aktuallığını şərtləndirən əsas amillərdən biri məhz onun Azərbaycan mədəniyyətinin mərkəzlərindən biri kimi, İrəvan şəhərinin öyrənilməsi probleminə toxunmasıdır. Qeyd etmək lazımdır ki, İrəvan şəhərinin tarixi Azərbaycan xalqının minillər boyunca yaratdığı zəngin maddi və mənəvi mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsidir. Çoxsaylı maddi-mədəniyyət nümunələrinin bir hissəsi tarix boyu arasıkəsilməz hərbi yürüşlər, müharibələr nəticəsində, xüsusilə zaman-zaman bu yerlərə köçürülüb gətirilən, tarixi torpaqlarımızda isti sığınacaq tapan ermənilər

tərəfindən məhv edilsə də, digər hissəsi isə ermənilləşidirilərək mənimsənilsə də, daşlara yazılmış yaddaşı pozmaq və ya dəyişmək yadellilərə heç də həmişə nəsib olmamışdır. Mövzunun tədqiqi bölgədəki bütün yer adları-toponimlərin Azərbaycan xalqına məxsusluğunu müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Burada həmçinin İrəvan şəhərinin tarixi keçmişi, şəhərin adının etimologiyası, istər vətən, istərsə də rus tarişünaslığında kök salmış fikirlər öz əksini tapmışdır.

Problemin aktuallığını şərtləndirən digər bir cəhət isə XIX əsrin ikinci yarısında İrəvanın mədəni səviyyəsinə görə Azərbaycanın inkişaf etmiş şəhərlərindən olmasını, bu dövrdə Azərbaycan mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilməsini göstərməkdir. Mədəniyyətin ən müxtəlif sahələrində şəhərin əldə etdiyi uğurlar bu fikri bir daha təsdiqləyir. Faktlar göstərir ki, XlX əsrin ikinci yarısında İrəvan şəhərində mədəniyyətin mühüm sahələrində əldə edilən uğurlar İrəvanda da Azərbaycanın digər bölgələri ilə eyni səviyyədə paralel, bəzi bölgələrdən isə irəlidə gedir. Bunu İrəvanda dünyəvi məktəblərin, teatrın açılması da sübut edir. İrəvanın bu dövrdə Azərbaycan mədəniyyətinə bəxş etdiyi simalar Azərbaycanın mədəniyyətinə, incəsənətinə, ədəbi mühitinə öz parlaq töhfələrini vermişlər. Əgər XIX əsrin ikinci yarısında Azərbaycan rəssamlarından Mir Möhsün Nəvvab, Muğanlı Əvəzin adını çəkiriksə, bu şəxsiyyətlərlə eyni səviyyədə duran şəxslərdən biri də İrəvan mühitinin yetirdiyi Mirzə Qədim İrəvani olmuşdur. Əgər İrəvanda ilk teatr tamaşası 1882-ci ildə göstərilmişdisə, bu Şuşada həmin ildə, Naxçıvanda bir il sonra, Gəncədə isə 1899-cu ildə göstərilmişdi. Bütün bu faktlar İrəvanın Azərbaycan mədəniyyətində mühüm yer tutmasını, ölkədə baş verən mədəni yenililərin önündə gedən mərkəzlərdən biri olmasını göstərir. Mədəniyyətə dair faktların təhlili XIX əsrin ikinci yarısında və xüsusilə XX əsrin əvvəllərində İrəvanda azərbaycanlıların siyasi hakimiyyətlərini və demoqrafik üstünlüklərini itirmələrinə baxmayaraq, mədəni cəhətdən hələ də bölgənin üstün etnik toplumu olmasını sübut edir. Faktların təhlili həmçinin İrəvan mədəni mühitinin erməni mədəniyyətinin bütün sahələrinə həlledici təsir göstərməsini, ermənilərin bu gün sahib olduqları mədəni dəyərlərin azərbaycanlılardan əxz etdiklərini göstərməkdədir.

İrəvan şəhərinin Azərbaycanın mədəniyyət mərkəzlərindən biri kimi öyrənilməsini aktual edən başlıca cəhətlərdən biri də XX əsrin əvvəllərində İrəvanda maarif sahəsində əldə edilən uğurlarla yanaşı, çarizmin əsarətdə olan xalqlara qarşı həyata keçirdiyi ruslaşdıma siyasətinin və xüsusilə ermənilərin türk-müsəlman əhalisinə qarşı 1905-1906 və 1918-1920-ci illərdə həyata keçirdikləri soyqırım siyasətinin İrəvanın maarif sisteminə mənfi təsir göstərən başlıca amillər olduğunu göstərməkdir. Məlumdur ki,

XX əsrin əvvəllərində əsası hələ XIX əsrdə qoyulmuş dünyəvi məktəblərin inkişafı prosesi davam etmiş, bu prosesə əhalinin daha geniş təbəqələri cəlb edilməyə başlamışdı. Eyni zamanda, XX əsrin əvvəllərində İrəvanın maarif həyatında müşayiət edilən ən mühüm tendensiyalardan biri azərbaycanlı qızların təhsilə cəlb edilməsi, qadınların maariflənməsi sahəsində atılan addımlar olmuşdur. XX əsrin əvvəllərində maarif sistemində əldə edilən uğurlarla yanaşı, baş verən siyasi hadisələr-1918-ci ildə daşnakların hakimiyyətə gəlməsi, onların yerli azərbaycanlı əhaliyə qarşı həyata keçirdikləri sistematik soyqırım siyasəti maarif sahəsində əldə edilmiş uğurların sonrakı inkişafını təhlükə altında qoydu. XX əsrin əvvəlində mövcud olan məktəblərin əksəriyyəti bağlandı, illərlə yetişmiş pedaqoji kadrlar isə təqiblərdən yaxa qurtulmaq məqsədilə İrəvanı tərk etmək məcburiyyətində qaldılar. Daşnak terrorundan yaxa qurtara bilmiş şəxslər isə daha sonralar Stalin repressiyalarının qurbanı oldular.

Tədqiqatın xronoloji çərçivəsi. Problem bilavasitə XIX-XX əsrin əvvəllərini əhatə edir.

İrəvan şəhərinin Azərbaycanın mədəniyyət mərkəzlərindən biri kimi öyrənilməsini şərti olaraq bir neçə mərhələyə bölmək olar:

**Birinci mərhələ**. Bu mərhələ şəhərin tarixi keçmişinin öyrənilməsi ilə yanaşı, həm də Rusiya işğalı ərəfəsi və dövründə İrəvan şəhərinin sosial-iqtisadi, ictimai-siyasi durumunu, ədəbi mühit və incəsənətinin öyrənilməsi ilə xarakterizə edilir.

XIX əsrin ortaları və ikinci yarısını əhatə edən **ikinci mərhələ** çarizmin qoyduğu bütün məhdudiyyətlərə baxmayaraq, İrəvanda ana dilində təhsil verən və yeni tədris-təlim üsuluna əsaslanan təhsil müəssisələri şəbəkəsinin genişlənməsi, fundamental elmlərə marağın artması, müxtəlif elm sahələrində peşəkar səviyyədə çalışan mütəxəssislərin formalaşması dövrün sosial-iqtisadi tələbatından irəli gələn qanunauyğun hadisə kimi səciyyəvidir. Digər tərəfdən, İrəvan şəhərində maarifçilik ideyalarının təsiri altında formalaşan ədəbiyyatın başlıca təzahür formaları yeni ədəbi janrların meydana gəlməsi ilə səciyyələnirdi. Yeni ədəbiyyatın yaranmasında Qərbi Avropa və rus klassik ədəbiyyatından edilən tərcümələrin sayəsində Avropa ədəbi mühiti ilə tanışlıq mühüm rol oynamışdı. Bu cərəyanın ən mühüm əhəmiyyəti onda maarifçilik ideyalarının ehtiva olunmasından ibarət idi. Məhz XIX əsin sonunda İrəvan azərbaycanlıları arasında formalaşan yeni ədəbi mühit ümumilikdə Azərbaycan ədəbiyyatında meydan gələn müsbət inkişaf meyilləri ilə qarşılıqlı surətdə inkişaf etmiş, XX əsrdə Azərbaycan ədəbiyyatının müsbət ənənələrinin formalaşmasına mühüm təsir göstərmişdi.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı və incəsənəti mərkəzlərindən biri kimi İrəvan şəhərinin öyrənilməsini əhatə edən **üçüncü**

**mərhələ** əhalinin maariflənməsi qayğısına qalmayan çarizimin bu sahədə öz mənafeyinə uyğun siyasət həyata keçirməsi, digər müsbət təzahürlərin qarşısını isə müxtəlif vasitələrlə alması ilə səciyyələnir. Çar hökuməti bu siyasətinə sadiq qalaraq XX əsrin əvvəllərində Qərbi Azərbaycanda açılmış məktəbləri müxtəlif bəhanələrlə bağlamışdı. 1920-ci ilə kimi artıq bölgədə 15 rus-tatar məktəbi qalmışdı.[1] Digər tərəfdən, XX əsrin əvvəllərində çarizmin əsarətdə olan xalqlara qarşı həyata keçirdiyi mənfur ruslaşdıma siyasəti və xüsusilə ermənilərin türk-müsəlman əhalisinə qarşı 1905-1906 və 1918-1920-ci illərdə həyata keçirdikləri kütləvi qırğınlar soyqırım siyasəti İrəvanın maarif sisteminə, ədəbi mühit və mətbuatının inkişafına mənfi təsir göstərən başlıca amillər olmuşdur.

**Problemin öyrənilmə səviyyəsi.** Qeyd etmək lazımdır ki, tədqiq olunan problemin kompleks şəkildə öyrənilməsi ilə bağlı vətən tarixşünaslığında tədqiqatlar aparılmamışdır. 70 il ərzində ölkəmizi əsarət altında saxlamış totalitar kommunist rejiminin xalqımızın gərgin mübarizəsi nəticəsində şərəfsizcəsinə süqut etməsi, Azərbaycanın 1991-ci ildə müstəqillik qazanmasından xalqımızın sonra öz tarixi köklərinə qayıtması üçün münbit şərait yaranmışdır. Demək olar ki, aparılan tədqiqat işlərinin xeyli hissəsi də elmi uğurlarımız sayılmalıdır.

İ.Məmmədovun "Tariximiz, torpağımız, taleyimiz" adlı tədqiqat əsərində[2] Qərbi Azərbaycanla bağlı məqamlara xüsusi yer verilmişdir. Müəllif bəhs olunan tədqiqat əsərində İrəvan şəhərinin tarixinə nəzər salır, şəhərin adı ilə bağlı istər vətən, istərsə də erməni tədqiqatçılarının əsərlərində rast gəlinən faktları üzə çıxarır, erməni ideoloqlarının İrəvanla bağlı məkrli planlarını faş edir. Müəllifin ən böyük uğurlarından biri uzun illər Ermənistan Əlyazmalar İnstitutu-Matenadaranda gizli qalmış tarixi faktları üzə çıxarması ilə bağlıdır. Eyni zamanda, Azərbaycan Səfəvilər dövləti adı çəkilən bölgəyə xüsusi əhəmiyyət verməsini faktların dili ilə qələmə alır, İrəvan xanlığının mərkəzi kimi İrəvan şəhərinin Azərbaycan tarixinin ayrılmaz hissəsi kimi nəzərdən keçirir. Uzunmüddətli axtarışları müəllifin İrəvan şəhərinin ədəbi, mədəni, elmi həyatından da yan keçməmişdir. Xüsusilə XIX əsrin sonu-XX əsrin əvvəllərində İrəvan şəhərində ziyalıların maarifpərvər əməyinin təsiri altında mətbuatın inkişafı, yerli qəzet və jurnalların milli intibahdakı rolu kimi məsələlər diqqət mərkəzində dayanır.

İ.Məmmədovun "İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri" adlı tədqiqat əsərində[3] İrəvan quberniyasının sahibi-sakinləri olmuş

---

[1] Adıgözəlov Ə.Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən. Bakı: Təhsil, 2003, 92 s.
[2] Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı: Adiloğlu, 2003, 700 s.
[3] Məmmədov İ. İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri. Bakı: Adiloğlu, 2002, 210 s.

azərbaycanlıların həyat tərzi, Azərbaycan ictiami fikrində "Molla Nəsrəddin" və "Füyuzat" məktəblərinin yetirməsi olan "Lək-lək" və "Bürhani-həqiqət" məcmuələrinin ideya-bədii istiqamətləri, bütövlükdə İrəvan quberniyasında baş vermiş ictimai-siyasi proseslər nəzərdən keçirilir.

F.Əliyev, U.Həsənov tərəfindən yazılmış "İrəvan xanlığı" adlı tədqiqat əsərində[1] tarixən qədim Azərbaycan torpaqlarını əhatə edən İrəvan xanlığı həm siyasi, həm də iqtisadi baxımdan öyrənilmişdir. Gərgin əməyin bəhrəsi olan kitabda müstəqil dövlət qurumuna çevrilməzdən əvvəl mürəkkəb və uzun tarixi yol keçmiş İrəvan xanlığının yaranması, ictimai-iqtisadi vəziyyəti və siyasi tarixi ilkin mənbələr və arxiv sənədləri əsasında təqdim edilmişdir. Doğrudur, tədqiq olunan problem müəlliflər tərəfindən işıqlandırılmasa da, kitabda 1747-1828-ci illəri əhatə edən dövrdə ermənilərin Azərbaycan ərazisində, Rusiya imperiyasının tərkibində "erməni dövləti" yaratmaq üçün müxtəlif məktublarla dəfələrlə Rusiya dövlətinə müraciət etmələri barədə də maraqlı məlumatlar vardır.

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu tərəfindən 2010-cu ildə işıq üzü görmüş "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" adlı fundamental monoqrafiya[2] da problemin bu və ya digər tərəflərinə yardımçı olmuşdur. Monoqrafiyada İrəvan xanlığının sosial-iqtisadi həyatı, sərhədləri və inzibati bölgüsü, XIX əsrin əvvəllərində İrəvan xanlığının yadelli işğalçılara qarşı qəhrəmancasına mübarizəsi geniş şəkildə öz əksini tapmışdır.

Ə.Ələkbərlinin "Qərbi Azərbaycan abidələri", B.Budaqov, Q.Ə.Qeybullayevin "Ermənistanda türk mənşəli toponimlərin izahlı lüğəti", İ.Bayramovun "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" adlı tədqiqat əsərlərində[3] daha çox Qərbi Azərbaycan ərazisində toponimlərin izahına yer verilir, İrəvan şəhərinin salınma tarixi diqqət mərkəzində dayanır.

Görkəmli tədqiqatçı Z.Bayramlının "Elm və Həyat" jurnalının 1990-cı il 6-cı sayında Səfəvilər dövrü Azərbaycanının inzibati vahidlərindən olan Çuxursəd bəylərbəyliyinin mərkəzi şəhəri olan İrəvan haqqında məlumatlar əks olunmuşdur. Müəllif faktların dili ilə İrəvan şəhərinin tarixinə diqqət yetirir, Səvəfilərin hakimiyyətinin başlanması ilə İrəvan şəhərinin tədricən inzibati mərkəzə çevrilməsini göstərir.[4]

---

[1] Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, 144 s.

[2] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Azərbaycan nəşriyyatı, 2010, 576 s.

[3] Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri. Bakı: Nurlan, 2007, 272 s.; Budaqov B. Ə., Qeybullayev Q. Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli Nəşriyyatı, 1998, 452 s.; Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm, 2002, 244 s.

[4] Bayramov Z., Cəfərli N. Çuxursəd bəylərbəyliyi. Elm və Həyat jurnalı, 1990, № 6, s. 32-34

Tarix üzrə elmləri doktoru S.Onullahi İrəvan şəhərinin yaranmasına diqqət yetirmişdir: "İrəvan Çuxursəd də adlandırılmışdır. Türk tayfasının başçısı Səd hündür dağlar arasında, çökək yerdə bu şəhərin əsasını qoyduğu üçün onun adı "Səd çuxuru", fars dilində isə "Çuxursəd" adlandırılmışdır." Müəllif daha sonra yazır: "Azərbaycanın qədim torpağı olan Çuxursəddə üç qala var idi. Ən qədim qala Osmanlı sərdarı Fərhad paşa tərəfindən hicri 991-ci (1583) ildə Zəngiçay kənarında saldırılmışdır. Ətrafında dərin xəndək qazdırılıb, çayın suyu ilə doldurulmuşdu. Çuxursəd ərazisi Şah İsmayılın hakimiyyəti dövründə qızılbaşların malikanəsinə daxil idi. Şah Təhmasib dövründə (1524-1576) isə Səfəvi dövləti ərazisində 13 bəylərbəylikdən biri Çuxursəd əyaləti idi. Ustaclı tayfasından olan Məhəmməd xan Toxmaq Ustaclı 35 ildən artıq bu müddətə Çuxursəd bəylərbəyisi vəzifəsində işləmişdi."[1]

İ.Abbasovun "Azərbaycan folkloru XIX əsr erməni mənbələrində" adlı əsərində[2] Rusiya işğalı ərəfəsi və dövründə İrəvan şəhərində həm yazılı ədəbiyyatın realist meylləri, həm də Azərbaycan əhalisinin geniş kütləsinin arzu və istəyini ifadə edən, ictimai-siyasi həyatın mühüm hadisələrini tərənnüm edərək xalqın yaddaşında əbədiləşməsinə, onun tarixi dərslərdən nəticələr çıxarmasına xidmət edən şifahi xalq yaradıcılığı istiqamətində inkişaf etməsi tədqiq olunur. Müəllif Matenadaranda apardığı elmi axtarışlarını çox müvəffəqiyyətlə tarixin yaddaşına köçürməyə nail omuş, bəhs olunan dövrdə yaşayıb-yaratmış şair və naşirlərin, məmurların, rəssam və alimlərin böyük bir nəsli, qüdrətli bir dəstəsinin İrəvanla bağlı olduğunu göstərmişdir.

F.Qasımzadənin "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" əsərində də[3] maarif, mədəniyyət yolunda çox böyük təşəbbüs göstərmiş, doğulduğu və yaşadığı yerin adını-məkanını öz əsərlərində yaşatmış İrəvan ziyalılarına da toxunlumuşdur. Görkəmli və qabaqcıl maarifçilərin səyi sayəsində İrəvan şəhərində Azərbaycan dilində dərsliklərin meydana gəlməsi, kitab nəşri, xarici ölkələr ədəbiyyatına dair tərcümə əsərlərinin işıq üzü görməsi xüsusilə tədqiqatdan yayınmamışdır.

H.İsmayılovun "Dədə Qorqud kitabı etalonu və Göyçə dastanları" adlı əsərində[4] İrəvan və Göyçə folklor ünsürlərinin, poeziyanın xalq üslubu və növlərinin, xalq dili xüsusiyyətlərinin yazılı ədəbiyyata keçməsi, canlı insan hisslərinin, konkret şəxs və hadisələrin, gerçəkliyin realist inikasının

---

[1] Onullahi S. Çuxursəd-İrəvan Səfəvilər dövründə. Bakı: Elturan jurnalı, 1995, sayı 1-2, s. 16-19.
[2] Abbasov İ. Azərbaycan folkloru XIX əsr erməni mənbələrində. Bakı: Elm, 1977, 154 s.
[3] Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif, 1974, 486 s.
[4] İsmayılov H. Dədə Qorqud kitabı etalonu və Göyçə dastanları. Dədə Qorqud dünyası. Bakı: Öndər nəşr. 2004, s. 146-155.

təsvirinə meyl XVIII əsrin sonu-XIX əsrin ilk yarısı xalq yaradıcılığı üçün səciyyəvi olan mühüm məqamları kimi araşdırılmışdır.

Ə.Mirəhmədovun “XIX əsr Azərbaycan mədəniyyəti”, A.Qazıyevin, K.Kərimovun “İrəvan sərdarının sarayı” adlı tədqiqatları[1] XIX əsrin əvvəllərində Azərbaycan incəsənətinin ayrılmaz tərkib hissəsi olan İrəvan incəsənət mühitinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Xüsusilə K.Kərimovun araşdırmalarından aydın olur ki, İrəvan Sərdarının Sarayının Güzgülü salonu və Yay köşkünün divarlarını bəzəyən ilkin rəsmlərin müəllifi bəlli deyil. Dekorativ və süjetli divar rəsmləri həmin dövrdə mövcud olmuş kanonlara və ənənəyə əsaslanır.[2]

H.Əhmədovun “XIX əsr Azərbaycan məktəbi” əsərində[3] XIX əsrin I yarısında ictimai-siyasi həyatın bütün sahələrində, o cümlədən maarif sahəsində çarizmin həyata keçirdiyi siyasət önə çəkilir. Müəllif birmənalı olaraq qeyd edir ki, Qəza məktəblərinin proqramları çarizmin daxili siyasətinin istiqamətindən, və müstəmləkəçilik siyasətinin konkret vəzifələrindən asılı olaraq dəyişilirdi. Məsələn, 1835-ci ildə tətbiq edilən proqrama əsasən qəza məktəblərinin proqramına rus dili, hesab, hüsn-xətt və ilahiyyatla yanaşı tarix, coğrafiya və həndəsəyə giriş kimi fənlər də daxil edilmişdi.[4]

Ə.Adıgözəlovun “Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən” adlı tədqiqatında da İrəvan qəza məktəblərinin tarixindən bəhs olunur.[5]

Ə.Zeynalovun “İrəvan ziyalıları” adlı monoqrafiyasında[6] İrəvan şəhərində yaşayıb-yaratmış və Azərbaycan ədəbiyyatına çox mühüm töhfələr vermiş ziyalılardan bəhs edilir.

P.Əfəndiyevin, M.Seyidovun, “Azərbaycan folkloru antalogiyası”-nın X cildi, Ə.Sultanlının “Azərbaycan dramaturgiyasının inkişaf tarixindən” adlı tədqiqat işlərində[7] İrəvan azərbaycanlıları arasında yayılmış folklor

---

[1] Mirəhmədov Ə. XIX əsr Azərbaycan mədəniyyəti. Az. SSR EA Tarix və Fəlsəfə İnstitutunun Əsərləri, VI cild, Bakı: Elm, 1955, 132 s.; Qazıyev A. XIX əsr Azərbaycan təsviri incəsənətinə dair yeni materiallar. “Ədəbiyyat və İncəsənət” qəzeti, 1958, 18 yanvar; Kərimov K. İrəvan sərdarının sarayı. “Yeni fikir” qəzeti, 1995, 18 oktyabr, № 5.

[2] Kərimov K. İrəvan sərdarının sarayı. “Yeni fikir” qəzeti, 1995, 18 oktyabr, № 5.

[3] Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 2000, 366 s.

[4] Əhmədov H. Göstərilən əsəri, s.19

[5] Adıgözəlov Ə. Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən. Bakı: Təhsil, 2003, 92 s.

[6] Zeynalov Ə. İrəvan ziyalıları.. Bakı: Oğuz eli nəşriyyatı, 1999, 364 s.

[7] Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 477 s.; Seyidov M. Erməni əlifbası ilə yazılmış Azərbaycan bayatıları // Azərbaycan SSR EA-nın Xəbərləri. İctimai elmlər seriyası, 1960, № 3, s. 78-101; Azərbaycan folkloru antalogiyası: 10 cilddə, X c., İrəvan çuxuru folkloru. Bakı: Səda, 2004, 471 s.; Sultanlı Ə. Azərbaycan dramaturgiyasının inkişaf tarixindən. Bakı: Elm, 1964, 305 s; İsmayılov İ. İrəvan ərazilərinin dünəni və bu günü. Bakı: Şirvannəşr, 2001, 113 s.

nümunələri, xalq dramlarının kökləri, mərasim və bayramlar zamanı ifa olunan xalq tamaşalarından bəhs olunur.

M.Hüseynov və L.Bretanskinin tədqiqat əsərində[1] XIX əsrdə İrəvanda Azərbaycan memarlarının ucaltdığı Azərbaycan zadəganlarına məxsus şəxsi mülklər, yaşayış evlərinin növləri Azərbaycan xalq memarlığının bədii səviyyəsini göstərməklə yanaşı, həm də, dekorun zənginliyini qurma bacarığı ilə fərqləndiyini vurğulanır.

Z.Məhərrəmovun "İrəvan türklərinin ədəbi mətbuat abidəsi" adlı tədqiqatı da araşdırılan problemə yardımçı olmuşdur. Belə ki, bəhs olunan əsərdə görkəmli və qabaqcıl maarıfçilərin səyi sayəsində İrəvan şəhərində Azərbaycan dilində dərsliklərin meydana gəlməsi, kitab nəşri, xarici ölkələr ədəbiyyatına dair tərcümə əsərlərinin işıq üzü görməsi kimi məsələlər, xüsusilə İrəvanda XX əsrin əvvəllərində dövrü mətbuatın meydana gəlməsi araşdırılmışdır.[2]

Mövzunun tarixşünaslığının səciyyəvi cəhətlərindən biri də ondan ibarətdir ki, Azərbaycan tarixinə dair yazılmış ümumiləşdirilmiş əsərlərdə də problemin bəzi məqamlarına toxunulmuşdur.[3]

Mövzunun tarixşünaslıq bəhsinin təhlilindən göründüyü kimi mövzu indiyədək vətən tarixşünaslığında konkret tədqiqat obyekti olmasa da, onun bir sıra aspektləri müxtəlif müəlliflər[4] tərəfindən işıqlandırılmış, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və mədəni həyatında İrəvan şəhərinin xüsusi əhəmiyyəti olduğu faktların dili ilə göstərilmişdir.

**Tədqiqatın mənbə bazası.** Tədqiqat işi yazılarkən müxtəlif mənbələrdən istifadə edilmişdir. Bu mənbələri şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

a) Arxiv materialları;

b) Qafqaz təqvimləri;

c) Qafqazda yaşayan xalqlar haqqında, o cümlədən Azərbaycan xalqı haqqında, onun tarixi, coğrafiyası, arxeologiyası və ədəbiyyatı, etnoqrafiyası, mədəniyyəti, adət-ənənələri və s. məsələlərə dair məlumatlar toplusu olan

---

[1] Усейнов. М. Бретанский. Л. Я. История архитектуры Азербайджана. М.: Госстройиздат, 1963, 396 с.

[2] İrəvan türklərinin ədəbi mətbuat abidəsi "Lək-lək". (Transliterasiyanın, ön sözün və lüğətin müəllifi Ziyəddin Məhərrəmov). Bakı: Açıq dünya nəşriyyatı, 2008, 148 s.

[3] Azərbaycan tarixi: 7 cilddə, 3-4-cü cildlər, Bakı: Elm, 2007: 3-cü cild 584 s., 4-cü cild, 508 s.

[4] Məhərrəmov Z. İrəvanda məktəbdarlıq və maarifçilik. Bakı: Nurlan, 2010, 319 s. Namazov Q. Aşıqlar. I kitab. Bakı: Səda, 2004, 183 s.; Ризаев С. Азербайджанский театр в Армении: Баку: Издательство Азербайджанское театрское общество, 1963, 109 стр.; Köçərli Firudin bəy. Azərbaycan ədəbiyyatı: 2 cilddə, I cild, Bakı: Elm, 1979, 446 s; Məmmədov İ. Faktlar təhrif olunanda. "Ədəbiyyat və incəsənət" qəzeti, 1983, 18 noyabr, № 46

“Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu (QƏXTMT-SMOMPK)”

d) Qafqaz Arxeoloji Komissiyasının Aktları-AKAK.

Araşdırılan problemə aid rəsmi sənəd və çar üsul-idarəsinin müxtəlif orqanları arasında gedən yazışmaların müəyyən hissəsi istər sovet dövründə, istərsə də ondan əvvəl çapdan çıxmışdır. Onlar içərisində çar hökumətinin qanunvericilik külliyyatına daxil olan sənədlər[1] çarizmin Şimali Azərbaycanda həyata keçirdiyi rus məktəbləri haqqında “Əsasnamələr” üzrə öyrənilməsi baxımından çox əhəmiyyətlidir.

Qeyd etmək lazımdır ki, Qafqaz Rusiya imperiyasının tərkibinə daxil edildikdən sonra, Tiflis şəhəri Cənubi Qafqazın inzibati və mədəni mərkəzi kimi fəaliyyət göstərməyə başlamışdır. Qafqazda yaşayan yüzlərlə xalqı idarə etmək üçün çar Rusiyası orada bir sıra inzibati təşkilat, idarə və cəmiyyətlər açmış, müxtəlif elmi və mədəni müəssisələr təşkil etmişdir. XIX əsrin əvvəllərindən etibarən, həmin idarə və təşkilatlar müxtəlif kitab, məcmuə, jurnal və qəzetlər çap etməyə başlamışdır. Bunların arasında “Tiflis quberniyasının təsviri üçün məcmuə”, “Qafqazın təqvimi”, “Qafqaz dağlıları haqqında məlumat toplusu”, “Kənd təsərrüfatı üzrə Qafqaz İmperator Cəmiyyətinin məcmuəsi” və “Qafqaz Arxeoqrafiya Komissiyasının aktları” və s. göstərmək olar. Çoxhəcmliliyi və elmi əhəmiyyəti ilə fərqlənən Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı 12 cildlik sənədlər toplusu məşhur Qafqazşünas alim A.Berjenin redaktorluğu ilə hazırlanaraq 1866-cı ildən etibarən Tiflisdə çap olunmuşdur. Bu toplularda rəsmi səciyyə daşıyan sənədlərlə (Qafqazın baş komandan və hakimlərinin hesabatları, raportları, məktub və reskriptlər və s.) yanaşı, statistik materiallar (vergi siyahıları və cədvəlləri, gəlir-çıxar sənədləri və s.) da mövcuddur. Qafqazda yaşayan digər xalqlarla yanaşı, Azərbaycan tarixinə dair mühüm mənbə sayılan bu toplularda Azərbaycan xanlıqlarının ictimai-iqtisadi, siyasi həyatı və s. öz əksini tapmışdır. Tədqiqata cəlb edilən sənədlər çarizmin Cənubi Qafqazın müsəlman əyalətlərində yeritdiyi siyasətin ana xəttini, xüsusilə birinci və ikinci rus-iran müharibələri dövründə İrəvan xanlığı ətrafında cərəyan edən siyasi prosesləri daha dərindən öyrənməyə imkan verir.[2]

Tədqiqat işi yazılarkən “Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu”ndan da istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, Qafqazda yaşayan xalqlar haqqında, o cümlədən Azərbaycan xalqı haqqında, onun tarixi, coğrafiyası, arxeologiyası, ədəbiyyatı, etnoqrafiyası, mədəniyyəti

---

[1] Полное собрание Законов Российской империи- II, т. IV , СПб.,1830, № 3060

[2] Акты, Собранные Кавказской Археографической Комиссией (АКАК). Т. 1-12, под ред. А.Берже. Тифлис, 1866-1904.

və s. məsələlərə dair çoxlu materiallar dərc etmiş həmin məcmuə Qafqaz Tədris İdarəsi tərəfindən 1881-ci ildən nəşr olunmağa başlamışdır. Nəşri 50 il davam etmiş və cəmi 46 cildi çapdan çıxmış bu toplunun ilk 44 cildi Tiflisdə (1881-1915), son iki cildi isə Mahaçqalada (1926-1929) buraxılmışdır.[1]

İrəvan azərbaycanlılarının XIX əsrin sonlarında dünyəvi təhsil sistemində tutduqları mövqeyi öyrənmək baxımından "Qafqazın təqvimi"nin materiallarından da yetərincə istifadə olunmuşdur.[2] Ancaq bu materialları toplayan dövlət məmurlarının çarizmin müstəmləkəçilik xəttinə haqq qazandırmaq və yerli xalqın tarixi inkişafında bütün mütərəqqi cəhətləri inkar etmək niyyəti açıq-aydın hiss olunmaqdadır.

Tədqiqat mövzusu ilə bağlı olaraq arxiv materiallarından da istifadə edilmişdir. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivinin (AR MDA) (F.313) materialları çarizmin daxili siyasətinin istiqamətini, və müstəmləkəçilik siyasətinin konkret vəzifələrini öyrənmək üçün əhəmiyyətlidir. Adı çəkilən fondda saxlanılan məlumatlardan aydın olur ki, "ziyanlı" hesab edilən hər şey xüsusi sərəncamla məktəb kitabxanalarından çıxarılır və müstəmləkəçilik planlarına uyğunlaşdırılırdı.[3]

Problemin araşdırılması zamanı XIX əsrin sonu-XX əsrin əvvəllərində nəşr olunmuş mətbuat orqanlarından da istifadə edilmişdir.[4]

Beləliklə, istifadə edilmiş bütün mənbələr mövzunun müxtəlif aspektlərini özündə əks etdirərək bir-birini tamamlayır. Göstərilən mənbələrin kompleks şəkildə və tənqidi yanaşma əsasında tədqiqata cəlb edilməsi İrəvan şəhərinin Azərbaycan mədəniyyətinin mərkəzlərindən biri kimi (XIX əsrin sonu-XX əsrin əvvəlləri) probleminin obyektiv tədqiq edilməsinə kömək etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işi yazılarkən qarşıya qoyulan əsas məqsəd XIX əsrin sonu-XX əsrin əvvəllərində İrəvan şəhərinin Azərbaycanın mədəniyyət mərkəzlərindən biri kimi mənbələr və mövcud ədəbiyyatın qarşılıqlı tənqidi təhlili əsasında araşdırılmasıdır. Bütün bunların əsasında İrəvan şəhərinin Azərbaycanın tarixi taleyində oynadığı rol və

---

[1] СМОМПК, вып. 1-44, Тифлис, 1881-1915

[2] Кавказский календарь на 1893 год. Типографии: Канцелярия Главноначальств гражданской части на Кавказе. Грузинское Издательское Товарищества, Либермана и Козловского. Тифлись, 1892, с. 82-83; Кавказский календарь на 1898 год. Типографии Шарадзе и Мартиросианца. Тифлись, 1897, III Статистическая сведения, с. 72-74; Кавказский календарь на 1901 год. Типографии Шарадзе и Мартиросианца. III отдель.Статистическая сведения. Тифлись, 1900, с. 84-87; Кавказский календарь на 1902 год. Типографии: Канцелярия Главноначальств гражданской части на Кавказе.Грузинское Издательское Товарищества, Либермана и Мартиросианца и Грузин. III отдель.Статистическая сведения. Тифлись, 1901, с. 64-67.

[3] Azərbaycan Respublikası MDA: f. 313, siyahı 3, iş 221, v. 17, 18

[4] "Kəşkül" 1890, 20 aprel, № 104; "Kaspi" 1 may, 1892; Tərcüman, 1885, 28 yanvar, № 6

tutduğu mövqenin müəyyən edilməsi də tədqiqatın əsas məqsədlərindən birini təşkil edir.

Tədqiqat işi yazılarkən konkret olaraq qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- İrəvan şəhərinin tarixinin xülasəsini vermək və ölkə tarixində zəngin ənənələrə malik olmasını faktlarla sübut etmək;

- Rusiya işğalı ərəfəsi və dövründə İrəvan şəhərinin sosial-iqtisadi və ictimai-siyasi durumunu səciyyələndirmək;

- Rusiya işğalı ərəfəsi və dövründə İrəvan şəhərinin düşdüyü ağır vəziyyət və onun səbəblərini müəyyənləşdirmək;

- Rusiya işğalı ərəfəsi və dövründə İrəvan şəhərində ədəbi mühit və incəsənətin inkişaf yollarını müəyyənləşdirmək;

- XIX əsrin ortaları və II yarısında Azərbaycan maarif və elminin inkişafında İrəvan şəhərinin rolunu müəyyənləşdirmək;

- XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı və incəsənəti mərkəzlərindən biri kimi İrəvan şəhərində maarif sisteminin durumu, ədəbi mühiti, mətbuatının inkişafı, aşıq məktəbi və folkloru, teatr və musiqi həyatını faktların dili ilə açıb göstərmək.

Tədqiqatın əsas predmeti istər çar Rusiyası, istər sovetlər dönəmi, istərsə də müstəqillik illərində İrəvan şəhəri ilə bağlı müxtəlif məlumatların təhlil edilməsidir.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiyanın metodoloji əsasını obyektivlik və tarixilik prinsipləri, bütün mənbə və məlumatların kompleks şəkildə və tənqidi təhlil əsasında müqayisəli təhlil yolu ilə araşdırılmasına söykənən obyektiv tarixi tədqiqat metodu təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertyasiya XIX əsrin sonu-XX əsrin əvvəllərindən İrəvan şəhəri Azərbaycan mədəniyyətinin mərkəzlərindən biri kimi müxtəlif mənbə və məlumatlar əsasında kompleks şəkildə öyrənən ilk tədqiqat işidir. Dissertasiyada müxtəlif vaxtlarda yazılmış əsərlər də diqqətlə öyrənilərək təhlil edilmiş və aşağıdakı nəticələr əldə edilmişdir.

- İrəvan şəhəri Azərbaycanın qədim və zəngin ənənələrə malik olan şəhərlərindən biridir;

-Azərbaycanın qədim bölgələrindən biri olan İrəvanın tarixən Azərbaycana məxsusluğu, bu bölgənin ermənilərin iddia etdiyinin əksinə olaraq türk-müsəlman mədəni mühitinin bir hissəsi olması kimi tarixi reallığı ölkəmizin həm siyasi, həm də mədəni tarixi təsdiqləyir;

- İrəvan bölgəsinin tarixini əks etdirən qədim, orta əsrlər və yeni dövrə aid olan mənbələrin hərtərəfli öyrənilməsi, o cümlədən göstərilən problemə dair tədqiqat aparmış alimlərin mülahizələrinin qarşılıqlı təhlili bölgənin Azərbaycanın tarixi torpaqlarından biri olması qənaətinə gəlməyə əsas verir;

- Mənbələrin qarşılıqlı şəklidə öyrənilməsi nəticəsində məlum olmuşdur ki, ermənilərin İrəvan bölgəsində saylarının artmasına yalnız XIX əsrin ikinci rübündən sonra təsadüf edilir;

- Müxtəlif zaman kəsiklərində İrəvanda olmuş səyyahlar-Şarden, Ö. Çələbi, Şopen bu abidələrin bir çoxu haqqında qiymətli məlumatlar vermişlər. Bölgədə yayılmış və ümumtürk mədəniyyəti üçün xarakterik olan qoçbaşı heykəllər bu diyarın türk mədəniyyətinin bir hissəsi olmasını göstərən mühüm faktdır;

- İrəvan şəhərində Azərbaycan mədəniyyətinə aid yüzlərlə məscid, məqbərə, hamam, saray və s. tikililər olmuşdur. Bu abidələrin əksəriyyəti, o cümlədən XVIII əsr Azərbaycan memarlığının ən görkəmli nümunələrindən olan Sərdar sarayı və Göy məscid erməni vandalizminin qurbanı olmuşdur;

- Aparılan tədqiqatlar göstərir ki, bölgədə XVIII əsrin sonu-XIX əsrin əvvəllərində ənənəvi müsəlman məktəbləri üstünlük təşkil etmiş, şagirdlərə mollaxana adlanan milli məktəblərdə əsasən dini biliklər verilmiş, oxumaq və yazmaq öyrədilmişdir;

-XIX əsrin ikinci rübündən sonrakı dövrlərdə İrəvanda açılan dünyəvi məktəblərə-İrəvan qəza məktəbinə, İrəvan gimnaziyasına, İrəvan Müəllimlər Seminariyasına azərbaycanlı əhali yaxından cəlb edilmiş, sonrakı məzunlar bölgənin maarif, elm, idarəçilk və digər sahələrində yaxından iştirak etmişlər;

- Beləliklə, İrəvan şəhərinin mədəni mühitinin tədqiqi göstərdi ki, burada yaranmış mədəniyyət ümumazərbaycan mədəniyyətinin mühüm bir parçası olub, əsrlərlə əcdadlarımızın yaratdığı milli ənənəyə əsaslanmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işində toplanmış çoxsaylı arxiv sənədləri, statistik məlumatlar, elmi ədəbiyyat və dövrü mətbuat materialları, əldə edilmiş nəticələr və irəli sürülmüş təkliflər, problemə yeni yanaşma prizmasından böyük əhəmiyyət daşıyır. Bunula yanaşı, dissertant problemin bütün tərəflərinin tam araşdırıldığını iddia etmir. Tədqiq olunan dissertasiya işi Azərbaycanın bu qədim şəhəri-İrəvanla bağlı ümumiləşdirilmiş əsərlərin yazılmasında, dərs vəsaitlərinin tərtib olunmasında, mühazirələrin və xüsusi nəşrlərin hazırlanmasında, tələbələrin kurs bə buraxılış, magistrantların dissertasiya işlərinin yazılmasında istifadə edilə bilər.

Dissertasiya işi yazılarkən təkcə problemin öyrənilməsi və faktik materialın toplanılması ilə kifayətlənilməmiş, eyni zamanda həmin faktların və sənədlərin təhlil edilməsinə, onların arasındakı əlaqələri və ziddiyyətlərin aşkara çıxarılmasına, hadisələrin əsl mahiyyətinin açılmasına çalışılmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya “Giriş”, üç fəsil, “Nəticə”, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, problemin öyrənilmə səviyyəsi və mənbəşünaslığı şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Həmçinin, tədqiqatın metodoloji əsası, elmi yeniliyi və əməli əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **"İrəvan şəhəri Rusiya işğali ərəfəsi və dövründə"** adlı birinci fəsli dörd yarımfəsildən ibarətdir. **"Şəhərin tarixi keçmişindən"** adlanan birinci yarımfəsildə Qərbi Azərbaycan ərazisinin qədim türk tarixi ilə bağlı məlumatları araşdırılmış, İrəvan şəhərinin adı, əhalisi və tarixi ilə bağlı tarixşünaslıqda, xüsusilə erməni müəlliflərinin əsərlərində rast gəlinən dolaşıq fikirlərə aydınlıq gətirilmiş və təhlil edilmişdir.

İrəvan şəhərinin tarixi keçmişi ilə bağlı məlumatların araşdırılması onu deməyə əsas verir ki, təkcə Şərq mənbələrində deyil, eyni zamanda rusdilli əsərlərdə də çox zaman bu şəhər "Rəvan"adlandırılırdı. Bu da təsadüfi deyildi. Şəhər XVI əsrin əvvəllərində dağlarla əhatə olunmuş rəvan yerdə-düzənlikdə salındığı üçün "Rəvan" adlandırılmışdır. Həmin bölgədə yaşayan azərbaycanlılar "r" hərfinin əvvəlinə "i" hərfi əlavə edirlər. Məsələn, Rza-İrza, rahat-irahat, rəhmin gəlsin-irəhmin gəlsin və s. "Rəvan" sözünün əvvəlinə "i" hərfi əlavə olunaraq "İrəvan" adı əmələ gəlmişdir. Sonralar ermənilər azərbaycanca səslənməsin deyə, bu adı "Yerevan" və yaxud "Erivan" çağırmışlar.[1] İlkin mənbələrin və tarixi ədəbiyyatın təhlilindən də belə nəticəyə gəlmək olur ki, İrəvan şəhəri özünün tarixi keçmişi ilə Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuş, XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Cənubi Qafqazda cərəyan edən siyasi və hərbi münaqişələrin qurbanı kimi çar Rusiyası tərəfindən işğal edilərək öz inkişaf prosesini əvvəlcə Rusiya imperiyasının tərkibində "Erməni vilayəti" nin, 1850-ci ildə Rusiya imperiyasının tərkibində, bu vilayət ləğv edildikdən sonra İrəvan quberniyasının əsas şəhəri statusunda qalmışdır.

Birinci fəslin ikinci yarımfəsli **"Şəhərin sosial-iqtisadi və ictimai-siyasi durumu"** adlanır. Burada Səfəvilər dövründə yaradılmış bəylərbəyliklər sisteminə daxil olan Çuxursəd bəylərbəyliyinin mərkəzi olan İrəvan şəhərinin sosial-iqtisadi və ictimai-siyasi durumu təhlil edilir. Göstərilir ki, İrəvan xanlığının iqtisadiyyatında əsas yeri torpaq üzərində mülkiyyət təşkil edirdi. Ölkənin iqtisadiyyatının başlıca sahəsini heyvandarlıq və əkinçilik tuturdu.

İrəvan xanlığında feodal təsərrüfatının özünəməxsus səciyyəsini iki

---

[1] Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, s. 63.

müxtəlif iqtisadi forma-oturaq əkinçilik və yarımköçəri maldarlıq təşkil edirdi ki, bu da kəndlərdən çoxsaylı vergilərin alınmasına gətirib çıxarırdı.

İrəvan şəhərinin sosial-iqtisadi və ictimai-siyasi durumu ilə bağlı araşdırılan məsələlər onu deməyə əsas verir ki, İrəvan xanlığında yeganə şəhər olan İrəvan həm əvvəlki dövrlərdə, həm də xanlığın mərkəzi kimi feodalizmə xas spesifik cəhətləri özündə birləşdirirdi. XVIII əsr və XIX əsrin birinci yarısında burada sənətkar və xırda ticarətçilərlə yanaşı, kənd əhlinə, feodallara, həmçinin əkinçilərə, maldarlara və qaçqın kəndlilərə də təsadüf edilirdi.

**“Ədəbi mühit”** adlanan üçüncü yarımfəsildə XVIII əsrdən etibarən mürəkkəb tarixi şəraitə baxmayaraq, İrəvan şəhərinin ədəbi mühiti araşdırılır, tədqiq olunur.

Bəhs olunan dövrdə yaşayıb-yaratmış şair və naşirlərin, məmurların, rəssam və alimlərin böyük bir nəsli, qüdrətli bir dəstəsi İrəvanla bağlı olmuşdur. Məhz XVIII əsrdən sonra sürətli inkişaf yoluna qədəm qoyan ədəbi yaradıcılıq Rusiya işğalı ərəfəsi və dövründə də davam etmişdir. İrəvan müsəlmanlarının gözlərini qəflət yuxusundan açan belə ziyalı mühiti maarif, mədəniyyət yolunda çox böyük təşəbbüs göstərmiş, doğulduğu və yaşadığı yerin adını-məkanını öz əsərlərində yaşatmışlar. Görkəmli və qabaqcıl maarifçilərin səyi sayəsində İrəvan şəhərində Azərbaycan dilində dərsliklərin meydana gəlməsi, kitab nəşri, xarici ölkələr ədəbiyyatına dair tərcümə əsərlərinin işıq üzü görməsi xüsusilə maraq doğururdu. Belə ziyalılardan biri Hacı Molla İrəvani idi. İrəvanda 1763-cü ildə doğulmuş H.M.İrəvani Nəcəfdə təhsil almış, dərin biliklər sahibi kimi vətəninə qayıdandan sonra İrəvanının axundu kimi fəaliyyət göstərmişdir.[1]

Aparılan araşdırmalar göstərir ki, folklor ünsürlərinin, poeziyanın xalq üslubu və növlərinin, xalq dili xüsusiyyətlərinin yazılı ədəbiyyata keçməsi, canlı insan hisslərinin, konkret şəxs və hadisələrin, gerçəkliyin realist inikasının təsvirinə meyl XVIII əsrin sonu-XIX əsrin ilk yarısı İrəvan şəhərinin xalq yaradıcılığı üçün səciyyəvi olan mühüm məqamlardır.

**“İncəsənət”** adlanan birinci fəslin dördüncü yarımfəslində hələ lap qədimlərdən təşəkkül tapmış İrəvan şəhərinin incəsənət həyatını Rusiya işğalı ərəfəsi və dövründəki vəziyyəti araşdırılır, təhlil olunur.

Bu dövrün İrəvan təsviri incəsənətinin ən geniş yayılmış və inkişaf etmiş sahəsi, ən gözəl nümunələri XVIII əsrin memarlıq abidələrində dövrümüzə qədər çatmış divarüstü boyakarlıqdır. Avropa səyyahlarını və rəssamlarını valeh edən, tərif dolu təəssüratlarını yazmağa vadar edən də

---

[1] Məmmədov İ. İrəvan dəftəri. Bakı: Adiloğlu, 2002, s. 15.

sərdar sarayının memarlığından daha çox onun zəngin bədii tərtibatı, divarları bəzəyən portret və süjetli kompozisiyalardan ibarət monumental boyakarlıq əsərləri olmuşdur. Əsrlər boyu ölkəmizin başına gələn təbii və ictimai fəlakətlər nəticəsində tarix bizə divarüstü boyakarlığın daha qədim nümunələrini saxlamışdır.[1]

Bütövlükdə isə qeyd etmək lazımdır ki, İrəvan incəsənəti həm məzmun, həm də bədii forma cəhətdən ənənəvi xarakter daşıyırdı. Divar rəsmlərindəki ov və döyüş səhnələrində çoxfiqurlu kompozisiyaların düzülüşü, obrazların və peyzajların təsviri, kolorit həlli və s. təsvir vasitələri XVIII-XIX əsrin ilk yarısı İrəvan təsviri sənətinin ümumi üslubu üçün xarakterikdir. Bu rəsmləri işləyən xalq ustalarının əsərlərində Azərbaycanın zəngin orta əsr miniatür və xalq incəsənəti ənənələri özünü göstərir.

Dissertasiyanın **"XIX əsrin ortaları və II yarısında Azərbaycan maarif və elminin inkişafında İrəvan ziyalılarının rolu"** adlanan ikinci fəsli beş yarımfəsildən ibarətdir. **"Təhsil"** adlanan birinci yarımfəsildə Qafqazı işğal edən Rusiya imperiyasının diyarda həyata keçirdiyi ictimai-siyasi həyatın bütün sahələri, o cümlədən maarif sahəsində çarizmin həyata keçirdiyi siyasət araşdırılır, təhlil olunur. Gösətrilir ki, Qafqazı işğal edən Rusiya imperiyasının diyarda həyata keçirdiyi siyasət xəttinin bütün istiqamətləri imperiyanın mənafelərinə xidmət edirdi.

Tədqiqatlar nəticəsində məlum olur ki, Cənubi Qafqaz Rusiya tərəfindən işğal edildikdən sonra diyarın azərbaycanlılar yaşayan hissələrində ibtidai təhsil yenə də bütövlükdə müsəlman ruhanilərinin ixtiyarında olan ənənəvi məktəblərdə cəmləşmişdi. İbtidai müsəlman məktəblərinin bir qismi məscidlərin nəzdində, digər böyük bir qismi isə kəndlərdə müstəqil şəkildə fəaliyyət göstərirdi. Bu tip məktəblərdə zümrə məhdudiyyəti qoyulmadan müxtəlif yaş qrupuna aid olan uşaqlar və hətta qızlar da təhsil alırdılar. Bu ibtidai məktəblər diyardakı məktəbyaşlı uşaqların heç də hamısını əhatə etmirdi. Dövrün mənbələrinin verdiyi məlumatlardan aydın olur ki, Qafqazdakı məktəblər məktəbyaşlı uşaqların yalnız onda birini əhatə edirdi.[2]

Dövrün mənbələrinə əsaslanaraq göstərilir ki, çarizmin qoyduğu bütün məhdudiyyətlərə baxmayaraq XIX əsrin ikinci yarısında İrəvanda ana dilində təhsil verən və yeni tədris-təlim üsuluna əsaslanan təhsil müəssisələri şəbəkəsinin genişlənməsi dövrün sosial-iqtisadi tələbatından irəli gələn

---

[1] Mirəhmədov Ə. XIX əsr Azərbaycan mədəniyyəti. Az. SSR EA Tarix və Fəlsəfə İnstitutunun Əsərləri, VI cild, Bakı, 1955, s. 18; İrəvan Xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Azərbaycan, 2009, s. 194.
[2] АКАК, том X., № 105

qanunauyğun hadisə idi.

İkinci fəslin **"Elm"** adlanan ikinci yarımfəslində XIX əsrin ortalarında ölkənin sosial-iqtisadi inkişafından irəli gələn maddi və mənəvi tələbat Azərbaycanda savadlı şəxslərin elmi-fəlsəfi maraq dairələrinin nəzərəçarpacaq dərəcədə dəyişməsi və bu sahədə yeni meyarların meydana gəlməsi tədqiq olunmuş, XIX əsrin ortalarında İrəvanda elmin inkişaf səviyyəsindən danışarkən bu prosesin iki mühüm isiqamətdə getməsi-bu istiqamətlərdən birincisi ənənəvi elmi-teoloji istiqamət olmuşdur ki, bu sahədə əsasən ruhanilər fəaliyyət göstərmişlər. Elmi-teoloji istiqamət çərçivısində öyrənilən elmə ənənəvi sahələr-fəlsəfə, məntiq, əxlaq, fiqh və s. daxil olduğu önə çəkilmişdir.

Bütün müsəlman Şərqində olduğu kimi İrəvan elm mühitində ənənəvi elmlərinin öyrənilməsi ilə əsasən müsəlman ruhaniləri-şiə-müsəlman aləmində müctəhid adlanan ruhanilər məşğul idilər. İrəvanın ruhani ziyalıları içərisində dövrün məhşur ülamələrindən olmuş, eyni zamanda incə ruhlu şeirlərin müəllifi kimi tanınmış Fazil İrəvaninin xüsusi yeri olmuşdur. 1782-ci ildə İrəvan şəhərində anadan olmuş Fazil İrəvani ilk təhsilini ənənəvi molla məktəbində almış, 20 yaşında Qahirəyə gedərək buradakı məşhur "Əl-Əzhərə" mədrəsəsində təhsil almışdır. İsfahan və Təbriz şəhərlərində axundluq edən F. İrəvani doğma şəhərinə qayıtdıqdan sonra Göy məscidin axundu olmuş və bu illərdə müctəhid rütbəsi almışdır. 1843-cü ildə Qafqaz müsəlmanları Şiə Ruhani idarəsi sədrinin müavini, 1846-cı ildə isə şeyxülislam olmuşdur.[1]

Məlumatlar göstərir ki, müsəlman mədəniyyətinin mərkəzlərindən biri olmuş və olmaqda davam edən İrəvanda ənənəvi elm sahələri ilə yanaşı, həm də fundamental elmlərin inkişafı dövrün tələbatından irəli gəlirdi. Bu sahənin yaranmasında və inkişaf etməsində dövrün mədəni ab-havası ilə yanaşı, İrəvanda açılmış yeni tipli məktəblərin və orada çalışan maarifpərvər pedaqoqların, ziyalıların da mühüm xidməti olmuşdur.

Dissertasiyanın ikinci fəslinin **"Ədəbiyyat"** adlanan üçüncü yarımfəslində milli şürun inkişafına, zəka nuruna yol açmağa can atan İrəvan ədəbiyyatı və maarifçilərindən bəhs olunur. Göstərilir ki, maarifçilər quberniyanın mədəniyyət mərkəzinə çevrilmiş İrəvan şəhərində ana dilində orijinal bədii əsərlər yazmağa, demokratik maarifçilik ideyalarını təbliğ edən, sosial həyat mövzusundan söhbət açan kitablar çap etdirməyə, dünya ədəbiyyatından seçmə tərcümələri öz oxucularına çatdırmağa başlamışdılar.

Aparılan araşdırmalar göstərir ki, Qədim ənənələrə malik olan İrəvan ədəbi mühiti XIX əsrin ikinci yarısında öz müsbət ənənlərini qoruyub

---

[1]Məmmədov İ. İrəvan dəftəri. Bakı: Adiloğlu, 2002, s. 21

saxlamışdı. Azərbaycan ədəbiyyatına Miskin Abdal kimi sənətkar bəxş etmiş İrəvan bu dövrdə də Azərbaycan ədəbiyyatının mühüm mərkəzlərindən biri kimi qalmaqda davam edirdi. F. Köçərlinin təbirincə desək "şəhri-İrəvan keçmişdə mərkəzi-üləma, füzəla və şüara olubdur."[1]

İrəvan ədəbi məktəbinin əsas səciyyəvi xüsusiyyətlərindən biri əsasən klassik şeir ənənələrinin qorunub saxlanması, əsərlərin əsasən Azərbaycan, fars və qismən də ərəb dilində yazılmasından ibarətdir.

XIX əsrdə İrəvan şairlərinin tam bir nəsli yazıb-yaratmış və Azərbaycan ədəbiyyatına mühüm töfhələr vermişlər. Bu dövrdə İrəvanda "Bəzmi" təxəllüsü ilə yazan Məşədi İsmayıl Hacı Kazımzadə, "Mütəlle" təxəllüslü Mirzə Kazım Qazi Əsgərzadə, Axund Əhmədov, "Sabir" təxəllüsülü Hacı Seyid Rza Əmirzadə, Mirzə Əlixan Şəmsül Hükəma, Ləli kimi şairlər yazıb-yaratmışlar . Seyid Rza Əmirzadənin şeirləri "Əkinçi" qəzetində də nəşr edilirdi. Dövrünün görkəmli şairlərindən hesab edilən, ustad sənətkar sayılan Seyid Rza "şirin sözlər" şairi fəxri adına layiq görülmüşdü.

Məlumatlar onu deməyə əsas verir ki, İrəvanlı müəlliflər öz şeirlərini həm də ana dilində nəşr etdirməyə təşəbbüs göstərmişlər. Ziyalıların səyi və əməyi ilə əslində artıq XIX əsrin ikinci yarısında çağdaş İrəvanda tərcümə ədəbiyyatının əsası qoyulmuşdu. Bu bir tərəfdən azərbaycanlı oxucuları dünya ədəbiyyatının inciləri ilə tanış edir, digər tərəfdən isə İrəvan ədəbi mühitinin nümayəndələrinin də yeni ədəbi ideyalar və janrlarla tanış olmalarına müsbət təsir göstərirdi. Məhz bu ideyaların təsiri altında artıq XIX əsrin sonlarında İrəvanda yeni janrlara müraciət edən ədiblər meydana çıxdı. Bununla bərabər, bu dövrdə İrəvanda kitab çapı üçün də texniki cəhətdən əlverişli şərait yarandı. Şəhərdə mövcud olan "Güləmiryan", "Edilson", "Kultura" və "Lyus" mətbəələrində yeni şriftlər əldə edildi ki, bu da ərəb qrafikası əsasında Azərbaycan dilində kitab nəşr etməyə imkan verirdi. Bu sahədə ilk təşəbbüsü Molla Hüseyn İrəvani göstərmişdir. Müəllif əsərini 1888-ci ildə Təbrizdə daş basması üsulu ilə çap etdirmişdir.[2]

XIX əsrin ikinci yarısında İrəvan ədəbi mühitinin inkişafının ikinci mühüm istiqamətini yeni yaranmaqda olan və maarifçilik ideyalarının təsiri altında formalaşan ədəbiyyat təşkil edirdi. Bu ədəbiyyatın başlıca təzahür formaları yeni ədəbi janrların meydana gəlməsi ilə səciyyələnirdi.

Dissertasiyanın ikinci fəslinin **"Folklor"** adlanan dördüncü yarımfəslində ədəbiyyatın ən qədim və xalqın dünyagörüşünü, təfəkkürünü özündə daha dərindən əks etdirən qolu-şifahi xalq ədəbiyyatının İrəvan

---

[1] Zeynalov Ə. İrəvan ziyalıları. Oğuz eli. Bakı: 1999, s. 19.
[2] Molla Hüseyn İrəvani. "Müseyibnamə", Təbriz, 1888, 201 s.

bölgəsi azərbaycanlılarının mədəni mühitində mühüm yer tutduğu araşdırılır.

Dövrün mənbələri və tarixi ədəbiyyatın araşdırılması göstərir ki, bu dövrdə bölgənin azərbaycanlı əhalisi arasında xalq yaradıcılığının bütün janrlarına zəngin nümunələr şəklində rast gəlmək mümkün idi. Bu janrlardan atalar sözləri, əmək nəğmələri, laylalar, əfsanələr, miflər, xalq inancları, xalq tamaşaları və s. xalq yaraıcılığında mühüm yer tuturdu.

İrəvan bölgəsində rast gəlinən və məişətlə bağlı olan xalq dramları forma və məzmunca Azərbaycanın digər bölgələri ilə oxşarlıq təşkil etsə də (məsələn, Novruz bayramı ilə əlaqədar olan "Kosa gəlin", "Kosa-kosa", "Tənbəl qardaş") kənar təsirə az uğramış olması və özündə daha qədim dövrlərə gedən izləri saxlaması ilə seçilir. İrəvanda Novruz bayramı günlərində keçilən kəl döyüşləri bölgənin belə özünəməxsusluğu hesab edilə bilər. Qeyd edilir ki, "kəl döyüşdürmək" Kitabi-Dədə Qorqudda rast gəlinən, Bayandur xanın ildə bir kərə keçirdiyi heyvan döyüşdürmək ritualının lokal, profanasiya olunmuş, sırf əyləncə xarakteri almış şəkli təsiri bağışlayır.[1]

İrəvan bölgəsində folklorun digər mühüm qolu olan aşıq yaradıcılığının kökləri hələ qədim dövrlərə gedib çıxır. Dədə Qorqud ənənələrindən qaynaqlanan bu janr haqqında danışdığımız bölgədə görkəmli söz ustadı Miskin Abdalın yaradıcılığı ilə yüsəlməyə başlamışdı. Aşıq yaradıcılığı XIX əsrin ikinci yarısında keyfiyyətcə yeni dövrə qədəm qoymuş, İrəvan-Göyçə aşıq məktəbi Azərbaycana bu dövrdə adları ədəbiyyat tariximizə qızıl hərflərlə yazılmış dahi sənətkarlar bəxş etmişdi.

Aparılmış tədqiqatlar göstərir ki, Azərbaycan mədəni mühüitinin mühüm tərkib hissəsi olan İrəvan  zəngin folklor mühitinə malik olmuşdur. İrəvan folkloru həm də qədim türk milli adət və ənənələrinin uzun müddət konservativ şəkildə qorunduğu, kənar təsirlərə az məruz qalması ilə də fərqlənir. İrəvan folklor nümunələrinin araşdırılması onun ən müxtəlif janrlarının inkişaf etməsi və zəngin ideya-bədii və yüksək ədəbi zövqə, qədim tarixi köklərə malik olmasını göstərir.

İrəvan folklor nümunələrinin təhlili dövrümüz üçün aktual olan daha bir neçə məsələyə aydınlıq gətirir. Bu hər şeydən əvvəl bölgənin köklü əhalisinin türkdilli azərbaycanlılardan ibarət olmasını sübut edir, digər tərəfdən isə azərbaycanlıların folklor və etnoqrafik səviyyədə ermənilərə çox şey verdiyini elmi cəhətdən sübut edir.

Dissertasiyanın ikinci fəslinin **"İncəsənət"** adlanan beşinci yarımfəslində XIX yüzilliyin ortalarından etibarən milli mədəniyyətimizin mühüm sahələrindən birini təşkil edən incəsənətimizin inkişafında

---

[1] Azərbaycan folkloru antalogiyası: 10 cilddə, X c., Bakı: Səda, 2004,  s. 29.

keyfiyyətcə yeni mərhələ açmış İrəvan şəhərinin incəsənət həyatı araşdırılır. Dövrün mənbələri göstərir ki, bəhs olunan dövrdə Azərbaycanın rus mədəniyyəti və onun vasitəsilə Avropa mədəni dəyərləri ilə tanış olması incəsənətin yeni istiqamətdə inkişafına təkan verdi.

XIX əsr Azərbaycan rəssamlığının nəhəng, əvəzedilməz təmsilçisinin İrəvan şəhərinin yetirməsi məhşur rəssam Mirzə Qədim İrəvaninin olması elm aləmində birmənalı şəkildə qəbul olunur. Mirzə Qədim İrəvani rəssamlıqda meydana gələn yeni meyilləri öz yaradıcılığında daha parlaq şəkildə əks etdirən rəssam olmuşdur. XIX əsrdə Azərbaycan rəssamlığında meydana gələn yeni sahə-dəzgah boyakarlığının banisi də məhz M.Q.İrəvani hesab edilir.

Aparılmış elmi araşdırmalar M.Q.İrəvaninin rəssamlığın ən müxtəlif sahələrində çoxşaxəli fəaliyyət göstərməsini ortaya çıxarmışdır. Rəssamın ən böyük uğurları isə portret və ornament kompozisiyalar sahəsində əldə edilmişdir. Onun şüşə, dəri və parça üzərində işlənmiş əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində, Gürcüstan Dövlət İncəsənət Muzeyində və Sankt-Peterburqda Dövlət Ermitajında nümayiş etdirilir.

M.Q.İrəvaninin ən müxtəlif materiallar üzərində çəkdiyi rəsmlərdə qızılgül və bülbül motivinin əsas yer tutmasını mütəxəsislər bu motivin qədim zamanlardan sevgi rəmzi sayılması ilə izah edirlər.[1]

Məlumatlar göstərir ki, İrəvan rəssamlıq məktəbinin formalaşmasında xalq sənəti növlərinin, tətbiqi incəsənətin mühüm rolu olmuşdur. XIX əsrdə Azərbaycan siyasi və iqtisadi parəkəndəliyə məruz qalsa da, el sənətlərinin bir çox növləri hələ öz əhəmiyyətini itirməmiş. Azərbaycanın digər şəhərləri ilə yanaşı İrəvanda da yaşayan yüzlərlə sənətkar daxili və xarici bazarlar üçün müxtəlif sənət nümunələri düzəldirdilər.

Məlumatlar onu deməyə əsas verir ki, incəsənətin digər sahələrində olduğu kimi İrəvan bölgəsində memarlıq ənənələri də inkişaf etməkdə idi. XIX əsrdə bölgədə inşa edilmiş və abidə səviyyəsinə yüksəlmiş tikililər özündə daha çox klassik ənənələri əks etdirsə də, onların üslubunda Avropa mədəniyyətindən irəli gələn yenililər də müşayət edilir. Təssüf ki, bu memarlıq abidələrinin bir çoxu erməni vandalizminin qurbanı olmuşdur.

XIX əsrin ikinci yarısında İrəvanın mədəni həyatının araşdırılması göstərir ki, bölgə özünün mədəni səviyyəsinə görə Azərbaycanın seçilən ərazilərindən olmuş, bu dövrdə Azərbaycan mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilmişdir. Mədəniyyətin ən müxtəlif sahələrində şəhərin əldə etdiyi uğurlar bu fikri bir daha təsdiqləyir. Faktlar göstərir ki, XlX əsrin ikinci yarısında mədəniyyətin mühüm sahələrində əldə edilən

---

[1]Rasim Əfəndi. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, s. 115.

uğurlar İrəvanda da Azərbaycanın digər bölgələri ilə xronoloji cəhətdən paralel, bəzi bölgələrdən isə irəlidə gedir. Bunu İrəvanda dünyəvi məktəblərin, teatrın açılması da sübut edir. Faktların təhlili İrəvan mədəni mühitinin erməni mədəniyyətinin bütün sahələrinə həlledici təsir göstərməsini, ermənilərin bu gün sahib olduqları mədəni dəyərlərin azərbaycanlılardan əxz etdiklərini göstərməkdədir.

Dissertasiyanın üçüncü fəsli **"XX əsrin əvvəllərində İrəvan şəhəri Azərbaycan ədəbiyyatı və incəsənəti mərkəzlərindən biri kimi"** adlanır. Bu fəsil də öz növbəsində dörd yarımfəsildən ibarətdir. **"Maarif sisteminin durumu"** adlanan birinci yarımfəsildə XX əsrin əvvəllərində Rusiya imperiyasında və o cümlədən onun milli ucqarlarından birini təşkil edən Azərbaycanda-İrəvan şəhərində maarif sisteminin durumunda xeyli yeni və mütərəqqi təzahürlər meydana gəlməsi araşdırılır. Məlumatlar göstərir ki, hələ əsası XIX əsrdə qoyulmuş dünyəvi məktəblər şəbəkəsi bu dövrdə xeyli dərəcədə genişlənir, müsəlman ucqarlarda qızların təhsil almasına qoyulmuş və xürafatdan irəli gələn əngəllər tədricən aradan qaldırılırdı.

XX əsrin əvvəllərində İrəvanda ibtidai və orta təhsil verən müəssisələr, bir Müəllimlər seminariyası və bununla yanaşı, bir sıra fərdi məktəblər, həmçinin mollaxanalar fəaliyyət göstərirdi.[1] İrəvanda fəaliyyət göstərən ibtidai məktəblər xəzinə hesabına fəaliyyət göstərən və ictimai olmaqla iki yerə bölünürdü. 1902-ci il məlumatlarına əsasən İrəvan quberniyasında 1-i şəhər, 1-i Müəllimlər İnstitutu nəzdində, 4-ü kənd məktəbi olmaqla xəzinə hesabına 6 ibtidai məktəb fəaliyət göstərirdi . İctimai əsaslarla fəaliyyət göstərən ibtidai məktəblərdən 14-ü şəhər, 12-si zemski, 8-i ikisinifli, 10-u birsinifli, 10-u xristian məktəbi idi.[2] 1902-ci ilə aid "İrəvan quberniyasının yaddaş kitabı" adlı mənbədə isə İrəvan quberniyasında İrəvan kişi gimnaziyası, İrəvan Qız Gimnaziyası, İrəvan Müəllimlər Seminariyası, 3 sinifli İrəvan şəhər məktəbi, 2 sinifli İrəvan qız məktəbi, İrəvan Müəllimlər Seminariyası nəzdindəki məktəb, 2 sinifli İrəvan rus-tatar məktəbi, İrəvan türmə nəzdində 1 sinifli məktəb fəaliyyət göstərdiyi məlum olur.[3] Ümumilikdə isə İrəvan quberniyasında 99 ibtidai məktəb fəaliyyət göstərirdi.[4]

İrəvanda XX əsrin əvvəllərində azərbaycanlı uşaqların ibtidai təhsilə cəlb edilməsi yenə də kafi səviyyədə deyildi. 1916-cı il yanvarın 1-nə olan məlumatlardan aydın olur ki, həmin il İrəvan quberniyasının ibtidai

---

[1]Кавказский календарь  на 1904, с. 83.
[2] Кавказский календарь  на 1904, с. 83.
[3] Памятная книжка Эриванской губернии на 1902. Эривань 1902, отд. 1, с. 78-82.
[4] Кавказский календарь  на 1904, с. 83.

məktəblərində 7562 kişi, 1820 qadın cinsindən olan uşaq təhsil almışdır.[1]

Təhsil sahəsində məlum problemlərə baxmayaraq bu dövrdə təhsil alan şagirdlərin sayı xeyli dərəcədə artmışdı. Müşahidə edilən müsbət tendesiyalardan biri şagird kontingenti içərisində qızların sayının nəzərəçarpacaq dərəcədə artması idi. Əgər XIX əsrin ikinci yarısında İrəvanda təhsil alan qızların sayı 1-2 nəfərlə hesablanırdısa, artıq XX əsrin əvvəllərində artıq onlarla qız dövrün müasir tədris proqramını keçərək müvafiq sənədlər almışdı.

1914-cü ilin yanvarın 20-nə olan statistik məlumata görə, İrəvan quberniyası ərazisində olan 15 rus-tatar məktəbində 911 şagird təhsil almışdır ki, bunlardan da 60 nəfəri qız idi.[2]

Arxiv məlumatlarından aydın olur ki, İrəvan müəllimlər seminariyasında 1916-1917-ci tədris ilində 22, 1917-1918-ci ildə isə 23 nəfər-cəmi 64 nəfər azərbaycanlı təhsil almışdı.[3] Müəllimlər Seminariyasında azərbaycanlıların xüsusi çəkisi elə əsrin ilk illərinə nisbətən xeyli dərəcədə artmış, başqa sözlə desək, 1902-ci illə müqayisədə onların sayı 1918-ci ildə 65,2% artmışdı. Qızlar təhsil alan İrəvan Ripsime Gimnaziyasında təhsil alan qızların sayı müvafiq olaraq 1915-1916-cı tədris ilində 13, 1916-1917-ci ildə 11, 1917-1918-ci ildə isə 11 nəfər-cəmi 35 nəfər olmuşdu.1916-cı ilə nisbətən Ripsime Gimnaziyasında təhsil alan azərbaycanlı qızların sayı 3 nəfər azalmışdı.[4]

Məlumatlar göstərir ki, İrəvanda azərbaycanlıların təhsil aldıqları məktəblərin işinə mənfi təsir göstərən amillərdən biri də çarizmin müstəmləkəçilik və ruslaşdırma siyasəti ilə əlaqədar olaraq rus-tatar məktəblərində ana dili tədrisinin gündən-günə sıxışdırılması və dərslərin tədricən rus dilində keçilməsi idi. Bu barədə Qafqaz Tədris dairəsinin qəyyumunun (çar Rusiyasında bəzi idarələrin müdirləri belə adlanırdı-müəllif) 1903-cü ilə aid hesabatında qeyd edilirdi ki, mahalın bütün ibtidai məktəblərinin 92,4%-də dərslər rus dilində keçilir, məktəblərin yalnız 7,6%-də şagirdlərə ana dili tədris edilir.[5] Digər tərəfdən isə XX əsrin əvvəllərində çarizmin əsarətdə olan xalqlara qarşı həyata keçirdiyi mənfur ruslaşdıma siyasəti və xüsusilə ermənilərin türk-müsəlman əhalisinə qarşı 1905-1906 və 1918-ci illərdə həyata keçirdikləri soyqırım siyasəti İrəvanın maarif sisteminə mənfi təsir göstərən başlıca amillər olmuşdur.

Dissertasiyanın üçüncü fəslinin ikinci yarımfəsli **“İrəvan ədəbi**

---

[1] Кавказский календарь на 1917 г. Типография канцелярии Е.И.В. наместника на Кавказе. Казенный дом. Тифлис. 1916, с. 310.

[2] Məmmədov İ. İrəvan dəftəri. Bakı: Adiloğlu, 2002, s. 99.

[3] Ermənistan MDA: f. 197, iş 5, v. 9.

[4] Ermənistan MDA: f. 197, iş 5, v. 9.

[5] Adıgözəlov Ə. Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən. Bakı: Təhsil, 2003, s. 34.

**mühiti"** adlanır. Burada Azərbaycan ədəbiyyatına ayrılmaz tellərlə bağlı olan İrəvan şəhərində XX əsrin əvvəllərində yaşayıb-yaratmış görkəmli ziyalıların ədəbi fəaliyyəti tədqiq olunmuşdur.

Dövrün mənbələrinin araşdırılmasından məlum olur ki, XX əsrin əvvəllərində İrəvanda Azərbaycan ədəbi həyatı mübarizələr içərisində inkişaf edirdi. F.Köçərli on il İrəvan Müəllimlər Seminariyasında çalışmış, 1895-ci ildə Qori Müəllimlər Seminariyasına şəriət və türk dili müəllimi vəzifəsinə dəyişdirilmişdir. Görkəmli alim İrəvan gimnaziyasında dərs deyərkən "Azərbaycan ədəbiyyatı" adlı əsəri üçün materiallar toplamış, ədəbi-bədii sözün görkəmli xadimləri arasında İrəvanda yaşayıb-yaratmış Məşədi İsmayıl Hacı Kazımzadə, Hacı Seyid Rza Əmirzadə, Mirzə Əlixan kimi sənətkarların yaradıcılığına toxunmuşdur. Bu şairlərin əsərlərindən verdiyi nümunələr əsasında F.Köçərli sübut edir ki, İrəvan şairləri əruz vəznində Azərbaycan türkcəsində gözəl şeirlər yazmışlar. Haşım bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Eynəli bəy Sultanov və C.Məmmədquluzadə 1917-ci il oktyabr çevrilişindən əvvəl İrəvanda işləmiş, öz ədəbi fəaliyyətlərini burada da davam etdirmişlər.[1]

Aparılan araşdırmalardan məlum olur ki, XX əsrin əvvəllərində bütün Azərbaycan poeziyasında olduğu kimi, İrəvan ədəbi mühitinin yetirmələrinin yaratdıqları bədii nümunələr daha çox klassik şeir janrlarına-qəsidə, qəzəl, müxəmməs və s. uyğun olaraq yaradılırdı. Lakin bəhs olunan dövrdə "Molla Nəsrəddin" ədəbi məktəbinin təsiri altında İrəvan ədəbi mühitində satirik şeirlərə də üstünlük özünü göstərirdi.

XX əsrin əvvəllərində baş verən siyasi hadisələr ədəbi mühitin sonrakı inkişafını təhlükə altına qoydu. Xüsusilə 1918-ci ildə daşnakların hakimiyyətə gəlməsi, çarizmin əsarətdə olan xalqlara qarşı həyata keçirdiyi ruslaşdırma siyasəti, ən nəhahət, 1918-1920-ci illərdə İrəvan şəhərində türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırım siyasəti İrəvan ədəbi mühitinin görkəmli ziyalılarını təqiblərə məruz qoydu.

Dissertasiyanın üçüncü fəslinin üçüncü yarımfəsli **"İrəvan aşıq məktəbi və folkloru"** adlanır. Bu yarımfəsildə İrəvan aşıq məktəbinin mühüm xüsusiyyətləri tədqiq olunur, XX əsrin əvvəllərində xalq yaradıcılığının ən mühüm inkişaf xüsusiyyəti kimi onda realizm ənənələrinin güclənməsi, bədii yaradıcılıqda gündəlik həyat səhnələrinin poetik şəkildə əks olunması vurğulanır. Dövrün məlumatları göstərir ki, XX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən ictimai-siyasi proseslər bütün sahələrdə olduğu kimi, aşıq sənətinin inkişafına da öz təsirini göstərmişdir.

---

[1]Ağazadə F. Firudin bəy Köçərlinin müxtəsər tərcümeyi-halı. Azərbaycan ədəbiyyatı tarixi materialları. Bakı: Azərnəşr, 1925, s.22

Bu təsir ilk növbədə, xalq yaradıcılığında müəyyən bədii-estetik dəyərlərin formalaşmasında özünü biruzə verirdi. Xalqın həyatında baş verən bütün hadisələr xalq yaradıcılığına da daxil olur və bədii şəkildə öz əksini tapırdı.

Aşıq poeziyasında realizm ünsürlərinin daha qabarıq nəzərə çarpması tarixi inkişaf dövrlərilə bağlı olan bir sıra ictimai-siyasi amillərlə bağlıdır. Belə ki, aşıq poeziyası ilk növbədə, xalqın aşağı təbəqlərinin, xalq kütlələrinin həyatı, zövq və tələbləri ilə bağlı olmuşdur. Orta əsrlərdə təbəqələr arasında ictimai fərqlərin tam kəskinliyi, xalq üçün yad və anlaşılmaz olan zadəgan-saray ədəbiyyatının inkişafı, xalqın öz ədəbiyyatını yaratmasına səbəb olmuşdur. Realizmdən kasad olan, daha çox kübar cəmiyyətin həyatını və istəklərini təcəssüm etdirən klassik ədəbiyyatla müqayisədə aşıq yaradıcılığı xalaqa daha yaxın və başa düşülən idi. Heç təsadüfi deyildir ki, aşıq ədəbiyyatının yazılı ədəbiyyata təsiri nəticəsində həmin ədəbiyyatda xalq ruhu, xalq dili və ifadələri realist meyllər daha da güclənmişdir.

XX əsrin əvvəlləri Qərbi Azərbaycan aşıqlarının yarasıcılığında erməni vəhşiliyinə qarşı inamlı mübarizə aparmış, xalqın qeyrətli oğullarını ətrafına toplayaraq Vedini düşmən işğalından qoruyan xalq qəhrəmanı Abbasqulu bəy Şadlınskinin obrazının canlandırılması mühüm yer tutur. Xalq sənətkarları erməni vəhşiliklərini təsvir etməklə yanaşı, xalqın müdafiəsinə qalxmış qəhrəmanın obrazını xüsusi realist metodlarla canlandırmağı özlərinə borc bilmişlər.

XX əsrin əvvəlləri İrəvan folklorunun elmi-tarixi cəhətdən təhlili göstərir ki, folklorun mühüm qollarını təşkil edən aşıq sənəti, dövrün ictimai-siyasi ziddiyyətlərinə baxmayaraq bu dövrdə öz inkişafının yüksək mərhələsini yaşayırdı. Əvvəlki dövrlərə nisbətən istər aşıq sənətinə, istərsə də folklorun digər mühüm janrı olan bayatı janrına realizm ünsürləri daha dərindən sirayət etmiş, bölgənin həyatı ədəbi əsərlərdə poetik şəkildə əks olunmuşdur. Aşıq sənəti və eləcə də digər folklor nümunələrinin təhlili bu qənaətə gəlməyə əsas verir ki, dövrün ictimai-siyasi hadisələrini obyektiv reallığa uyğun şəkildə əks etdirdiyən görə onlar bölgənin tarixini, xüsusilə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım siyasətini öyrənmək baxımından mühüm mənbədir.

Dissertasiyanın üçüncü fəslinin **"İrəvanın teatr həyatı"** adlanan dördüncü yarımfəslində XIX əsrin sonu-XX əsrin əvvəllərində İrəvan şəhərində teatr sənətinin təşəkkülü və inkişafı araşdırılır, səhnə xadimlərini rolu tədqiq olunur.

Aparılan araşdırmalar göstərir ki, İrəvan şəhəri XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin qabaqcıl mərkəzlərindən biri olmaqla eyni zamanda dini fanatizmin tüğyan etdiyi məkanlardan biri idi. Göstərilən bu hal teatr sənətinin inkişafına, xüsuslə tamaşaçı kütləsinin

formalaşmasına mənfi təsir göstərirdi. Teatrın inkişafı yolunda əngəl olan mövhumatla mübarizə aparmaq və onu dəf etmək üçün əsl sənət fədailəri tələb olunurdu.

İrəvan teatrının təşəkkülündə və inkişafında, onun bütün Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların ruhi-mənəvi və mədəniyyət mərkəzinə çevrilməsində hələ gənc yaşlarında İrəvan dram teatrında səhnəyə qədəm basmış, sonralar isə onun korifeyinə çevrilmiş Yunis Nurinin rolu əvəzedilməzdir. Aparılan tədqiqatlardan məlum olur ki, o, 1878-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Şərq ədəbiyyatının, o cümlədən ərəb və fars dillərinin gözəl bilicisi olan yunis Nuri İrəvanda Azərbaycan mədəni həyatının önündə gedən fədakar ziyalılardan biri olmuşdur. O, teatra bağlandığı ilk gündən ömrünün sonunadək (1950) İrəvan Azərbaycan teatrının sütunu, yaradıcı kollektivin mənəvi atası, müəllimi olmuşdur. İrəvan Azərbaycan teatrında qadın rolunun ilk ifaçısı Yunis Nuri olmuşdur. Yunis Nuri "Müsyö Jordan və Dərviş Məstəli şah" əsərində Şəhrəbanu xanım rolunu o qədər gözəl və sənətkarlıqla yaratmışdı ki, tamaşaçılar qadın rolunu oynayanın kişi olduğunu belə müəyyənləşdirə bilməmişdilər.[1]

Məlumdur ki, "böyük ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirtdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi.[2]

1905-ci il hadisələri gərginləşdiyi zaman mədəniyyətin digər sahələri kimi, İrəvan Azərbaycan teatrı da böhran dövrü keçirmişdir. Ermənilərin 1905-ci ildə törətdikləri vəhşiliklər İrəvanda Azərbaycan mədəni həyatına ağır zərbə vursa da, teatrın fədakar kollektivi bu sənət ocağının inkişafına təkan verməklə yanaşı, tamaşaların bədii səviyyəsini yüksəltməyə çalışırdılar. 1905-1918-ci illər ərzində Azərbaycan teatrının böyük sənətkarları Hüseyn Ərəblinski, Mirzə Ağa Əliyev, Sidqi Ruhulla, Mustafa Mərdanov, Əliqulu Qəmküsar, Zülfüqar Hacıbəyov, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mərziyyə Davudova və başqalarının etdikləri qastrol səfərləri İrəvanın mədəni həyatının oyanmasına, yerli aktyorların səhnə yaradıcılığına, teatrın dərnək səviyyəsindən peşəkar teatr səviyyəsinə yüksəlməsinə böyük təsir göstərmişdir. Əvvəllərdə olduğu kimi, yenə də Azərbaycan teatrlarının repertuarında mərkəzi yeri Azərbaycan

---

[1] Allahverdiyev C. İrəvan ədəbi mühiti. Bakı: Elm, 2010, s. 187

[2] Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 mart tarixli fərmanı. "Azərbaycan" qəzeti, 1998, 27 mart.

dramaturqlarının – M.F.Axundovun, N.B.Vəzirovun, Ə.Haqverdiyevin, N.Nərimanovun, C.Məmmədquluzadənin əsərləri tuturdu.[1]

1918-ci ilin mayın 29-da İrəvan şəhərinin siyasi mərkəz kimi güzəştə gedilməsi, 1918-1920-ci illərdə minlərlə azərbaycanlı məhv edilməsi, qalanlarının isə əzablı ölümdən xilas olmaq üçün ölkəni tərk etməyə məcbur olması Demək olar ki, İrəvanda Azərbaycan ədəbi-mədəni həyatı tam tənəzzülə uğradı. Bütövlükdə isə daşnakların iki il yarım davam edən hakimiyyəti dövründə İrəvan şəhərində Azərbaycan teatr və musiqi həyatından söhbət açmaq olduqca çətindir.

1920-ci ilin noyabrın 29-da Ermənistanda Sovet hakimiyyəti quruldu. Bir qayda olaraq sovet tarixçiləri bu dövrü daşnak millətçiliyinə son qoyulması, bolşevik beynəlmiləlçi ideyalarının təsbit olunması, Ermənistanda yaşayan xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin bərpası və inkişaf dövrü kimi dəyərləndirirlər. Əslində isə bir daha vurğulamaq lazımdır ki, daşnakların genosid siyasəti sovet hakimiyyəti illərində də daha incə üsullarla davam etdirilirdi.

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış və əldə olunmuş nəticələr təhlil edilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. XIX əsrin I yarsında qədim Azərbaycan şəhəri İrəvanın incəsənətinə dair // AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, 2008, № 5, s. 350-352.

2. XIX əsrin II yarsında Azərbaycan folklorun inkişafında İrəvan şəhərinin rolu // AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, 2011, № 3 s. 201-204.

3. XIX əsrin II yarsında İrəvan şəhərində təhsil sisteminin vəziyyətinə dair // ADPU-nun Xəbərləri, 2013, № 4, s. 143-147.

4.XIX əsrin II yarısında İrəvanda Azərbaycan türklərinin mənəvi durumu // Tarix və onun problemləri, 2013, № 3, s. 48-51.

5. Роль города Иреван в развитии Азербайджанского искусства во второй половине XIX века // Научное издание Сборник научных работ «Гилея: научный вестник» 2013, Выпуск 74 (№7), с. 97-99.

6. XIX əsrin II yarsında Azərbaycan elminin inkişafında İrəvan ziyalıla-rının rolu // Tarix və onun problemləri, 2014, № 2, s.105-111.

---

[1]Azərbaycan tarixi: 3 cilddə, III cild, Bakı: Az. SSR EA-nın Nəşriyyatı, 1968, s. 919-921

**Бабек Огтай оглы Керимов**

# ГОРОД ЕРЕВАН КАК ОДИН ИЗ КУЛЬТУРНЫХ ЦЕНТРОВ В XIX – XX ВВ.

## Резюме

В представленной диссертации является изучения города Ереван, как один из культурных центров XIX – XX веков. Известно, что сам город Ереван был один из центров с богатой древней историей с её культурным наследием. Отражая различные периоды истории города Ереван, имеются памятники древних стен замка, архитектура отражая исламский стиль, мечети, мусульманские культурные центры, надгробные плиты, места для паломничества, гравюры глубокой древности, где преобладала тюркоязычие и это также соответствовало её этнической принадлежности.

Диссертация состоит из введение, трех глав и заключение, список использованных литератур.

В введение говорится об научной важности данной теме, некоторые вопросы, хронология, также уровень в рамках обучении и её источниковедения, установлена цель и задача исследовании.

I – глава называется «Город Ереван накануне российского вторжения» главе описывается история города Еревана, социально - экономический и политическая ситуация города далее искусство, литературная среда города.

II – глава «Вторая половина XIX века город Ереван развития её образования и роль интеллигенции». В то время исследуется интеликтаульное развития города Ереван, в области образования, науки, литературы, фольклора, и искусства.

III – глава «Город Ереван один из культурных центров литература и искусства в начале XX века» В этой глава описывается система образования города, литературная среда, также театральная жизнь. Исследования проводилась на основе источников.

В Заключение проведены некоторые анализы выводы, данной диссертации.

**Babak Oqtay oglu Karimov**

# IREVAN CITY AS ONE OF THE CULTURAL CENTERS OF AZERBAIJAN (XIX-EARLY XX CENTURY)

## Summary

In the thesis have been studied the history of Irevan, which was being one of the cultural centers of Azerbaijan. It is known that the city of Irevan had ancient history, rich culture and heritage in Azerbaijan. Reflecting the different periods in the history of our nation's monuments, the ancient castle walls, built in the architectural style of the east-Muslim buildings, mosques, cultural centers, tombstones, monuments, pilgrimages, engravings from the very ancient times, the Turks proved that ethnicity is the leading places.

Dissertation consists of "Introduction", in three chapters, "Conclusion" and include a list of the literature.

In the Introduction analyzed historiographical base of research, the purpose of objectives, methodological foundations, scientific innovation, theory and a practical significance of the work.

The first chapter of Dissertation is called “Irevan city on the eve and period of the invasion of Russia. This chapter deals with the history of the city of Irevan, the city's socio-economic and political situation, as well about the literary environment.

The second chapter of the dissertation is called “Irevan intellectuals’ role in the development of Azerbaijan’s education and enlightment” in the middle and the second half of the nineteenth century. In this chapter author researched education, science, literature, folklore and art of Irevan city as well.

The third chapter of the dissertation is called “Irevan city as one of art and literary center of Azerbaijan at the beginning of the twentieth century”. In this chapter, the educational system in the city of Irevan, the literary heritage, Irevan’s minstrel school and folklore, as well as the theatrical life of the city of Irevan was researched on the basis of the sources.

In the "Conclusion" of Dissertation summarizes the results of the study and total all the pluses of thesis.

Çapa imzalanmışdır: 24.06.2014
Formatı: 60/84, 16/1
Sifariş: 71
Sayı: 100

***AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir***

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

*На правах рукописи*

**БАБЕК ОКТАЙ оглы КЕРИМОВ**

# ГОРОД ЕРЕВАН КАК ОДИН ИЗ КУЛЬТУРНЫХ ЦЕНТРОВ В XIX – XX ВВ.

**Специальность: 55.03.02–Отечественная история**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание научной степени
доктора философии по истории**

**НАХЧЫВАН – 2014**